Cəmilə Elçin qızı QULİYEVA
Azərbaycan Kooperasiya Universitetinin dissertantı,
E-mail: calalzadecamila@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.02.007

AZƏRBAYCANDA NƏQLİYYAT-LOGİSTİKA SİSTEMİNİN POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏ EDİLMƏSİ MƏSƏLƏLƏRİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanda nəqliyyat-logistika sisteminin potensialından səmərəli istifadə edilməsi məsələlərinin tədqiqindən ibarətdir.

Tədqiqatın metodologiyası kimi, analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından daha çox istifadəyə üstünlük verilmişdir. Həmçinin nəqliyyat-logistika sisteminin potensialından istifadə problemləri üzrə tədqiqatlar aparmış alimlərin elmi-metodoloji yanaşmaları nəzərə alınmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti olaraq qlobal transformasiyalar şəraitində nəqliyyat-logistika sisteminin potensialından daha səmərəli istifadə edilməsi üzrə mexanizmlərin hazırlanması nəzərdə tutulur.

Tədqiqatın nəticələri – müasir dövrdə əldə olunmuş elmi müddəalardan və verilmiş təkliflərdən nəqliyyat-logistika sisteminin səmərəli təşkil olunmasında, çoxfunksiyalı fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın orijinallığı və elmi yeniliyi dedikdə, ilk növbədə müasir qlobal çağırışlar kontekstində Azərbaycanda nəqliyyat-logistika sisteminin təkmilləşdirilməsi, bu sahədə olan mövcud potensialdan maksimum səmərəli istifadə edilməsi mexanizmlərinin tətbiq üçün hazırlanması ön plana çıxır. Azərbaycandan keçən Beynəlxalq nəqliyyat marşrutlarının strateji əhəmiyyəti nəzərə alınmaqla, nəqliyyat-logistika sisteminin maksimum yenilənməsi, yüksək texnologiyalar əsaslı nəqliyyat-logistika infrastrukturunun yaradılmasının vacibliyi elmi arqumentlərlə əsaslandırılmış və bir qrup təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, Azərbaycanın nəqliyyat-logistika sistemi, nəqliyyat, logistika, nəqliyyat-logistika potensialından səmərəli istifadə edilməsi problemləri, nəqliyyat-logistika sisteminin inkişaf perspektivləri, tranzit potensialı, nəqliyyat-logistika sisteminin strateji funksiyaları.

Giriş

Müasir dövrdə Azərbaycanda nəqliyyat-logistika sisteminin potensialından istifadənin genişləndirilməsi yüksək keyfiyyətli xidmətlər göstərməyə, beynəlxalq nəqliyyat dəhlizlərini inkişaf etdirməyə, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmağa və s. kömək edir. Hazırda ölkənin iqtisadi qüdrətini artırmaq üçün əsas vəzifələrdən biri nəqliyyat-logistika sisteminin potensialının genişləndirilməsidir. Digər tərəfdən, bu amil Azərbaycanın ixrac potensialının genişlənməsi və yerli məhsulların dünya bazarlarına çıxarılması ilə sıx bağlıdır. Azərbaycan iqtisadiyyatında nəqliyyat-logistika sistemlərinin rolu müxtəlif amillərin sistematik qarşılıqlı təsiri ilə müəyyənləşdirilir. Hazırda təklifin tələbi üstələməyə başladığı məlumdur, odur ki, iş adamları və sahibkarlar öz fəaliyyətlərində logistika prinsip və yanaşmalarının tətbiqinin vacibliyini getdikcə daha çox dərk edirlər. Nəqliyyat-logistika sistemləri iri beynəlxalq istehsal və ticarət şirkətlərinin regionlara gəlməsi, yeni iş yerlərinin açılması və büdcəyə vergi daxilolmalarının artması baxımından böyük önəm daşıyır [3, s.61].

Nəqliyyat-logistika sisteminin potensialının reallaşdırılmasına yanaşmaların tədqiqi

Qeyd edək ki, nəqliyyat-logistika sisteminin potensialının əsası kimi nəqliyat-logistika infrastrukturları çıxış edir. Nəqliyyat-logistika infrastrukturunun əsas elementlərinə daxildir: 1. Əsas

nəqliyyat növləri üzrə nəqliyyat şəbəkəsi: - yollar; - su nəqliyyatı; - hava limanları; - dəmiryolu; - boru kəməri. 2. Əsas mülkiyyət forma və növlərinə görə nəqliyyat parkı. 3. Xidmət təşkilatları şəbəkəsi, parkinq, yanacaq təchizatı. 4. Nəqliyyat və yük qovşaqları, o cümlədən: - logistika mərkəzləri; - ictimai anbarlar; - terminallar; - paylayıcı mərkəzlər; - gömrük anbarları; - gömrük xidmətləri. 5. İnformasiya altsistemi və regional informasiya-analitik mərkəzlər. 6. Yük vahidlərinin unifikasiyası altsistemi və yüklə əməliyyatların aparılması üsulları (konteyner, qablaşdırma, yükün kodlaşdırılması və onların eyniləşdirilməsi). 7. Maddi-texniki təchizatın təmin edilməsi üçün normativ-hüquqi sistem. 8. Logistika proseslərinin iştirakçıları. Nəqliyyat-logistika infrastrukturların əsas funksiyaları ola bilər: anbar funksiyası; saxlama funksiyası; nəqliyyat funksiyası; paylama və satış funksiyası; optimal istehlakı təminetmə funksiyası. Bu funksiyalar bütün nəqliyyat-logistika sistemlərinə aiddir. Nəqliyyat-logistika sistemlərinin idarə edilməsi nəzəriyyəsində, həmçinin ərazilərin (regionların, bələdiyyələrin) idarə olunması səviyyəsində nəqliyyat-logistika infrastruktur obyektlərinin müəyyənləşdirilməsinə ümumi yanaşma mövcuddur [6, s.10].

Nəqliyyat-logistika infrastrukturunun ölkələrarası istifadəsi və inkişafının əsas vəzifəsi onun rəqabət potensialının qorunub saxlanılmasıdır ki, bunun sayəsində istənilən ölkə qlobal dəyər zəncirlərinin formalaşmasına daha dərindən nüfuz edə bilir. Qlobal dəyər zəncirlərinin fəaliyyəti əsasən müxtəlif regionlarda yerləşən qlobal istehsalın mərhələləri arasında nəqliyyat-logistik həlləri birbaşa təmin edən inteqrasiya olunmuş logistikanın inkişaf səviyyəsindən asılıdır [8, s.17]. Hazırda bütün qabaqcıl dünya ölkələrində demək olar ki, bütün xarici ticarət dövriyyəsi regional nəqliyyat-logistika infrastrukturları vasitəsilə reallaşdırılır. Onlar ölkənin iqtisadi potensialını saxlamaq üçün vacibdir. Nəqliyyat-logistika infrastrukturları vasitəsilə ölkəyə xeyli xarici valyuta daxil olur. Belə mərkəzlərdən tutulan vergilər adətən büdcəyə əhəmiyyətli töhfədir. Nəqliyyat-logistika infrastrukturları mövcud tələbata uyğun olaraq ehtiyatları hazır məhsul tədarükünə çevirmək üçün bir vasitədir.

Avropa ölkələrinin nəqliyyat-logistika infrastrukturları rəqabət üstünlükləri ilə seçilir. Həmin infrastrukturların rəqabət üstünlüklərinin əldə edilməsinin ən mühüm aspektlərinə daxildir: nəqliyyat-logistika mərkəzlərinin inkişaf etmiş infrastrukturunun mövcudluğu; əlverişli coğrafi yerləşmə; gömrük və hökumətlə əməkdaşlığın olması; geniş nəqliyyat sisteminin olması; xidmətlərin və nəqliyyat növlərinin şaxələnməsi; prosedurların səmərəliliyi və maksimum sadəliyi; ən son yüksək texnologiyalara əsaslanması.

Müasir dövrdə dövlət-özəl əməkdaşlığının istənilən formasından istifadə investisiyalarla bağlı dövlət büdcəsinin yükünün azaldılmasına və bu yükün bir qisminin özəl sektora yönəldilməsinə və sosial infrastruktur layihələrində risklərin bölüşdürülməsinə şərait yaratmaq imkanına malikdir. Nəqliyyat-logistika sisteminin potensialının genişləndirilməsinə digər müxtəlif amillər də təsir edir: 1. Rəqəmsallaşma. 2. Beynəlxalq ticarətdə dəyişikliklər. 3. Yeni proqram təminatının tətbiqi ilə əlaqədar proseslərdə dəyişikliklər. 4. Daxili bazarların dəyişən dinamikası. 5. Yeni avadanlıqların tətbiqi ilə əlaqədar proseslərdə baş verən dəyişikliklər [11, s.42].

Nəqliiyat-logistika sistemlərinin potensialının genişləndirilməsində nəqliyyat-logistika şirkətlərinin özləri də maraqlı olmalıdır. Nəqliyyat-logistika şirkətləri, ilk öncə, aşağıdakı məsələləri həll etməyə çalışmalıdırlar: mövcud yük yerindən maksimum istifadə etmək; ən xırda nöqsanları belə müəyyən edib aradan qaldırmaq, qabaqcadan planlaşdırmaq; həvəsləndirmə və təlim vasitəsilə sənayeyə yeni işçiləri cəlb etmək; alternativ limanları, hava yük qovşaqlarını və nəqliyyat marşrutlarını axtarmaq; əmək və iş vaxtı arasında balansı bərpa etmək [9, s.226].

Nəqliyyat-logistika sisteminin potensialının genişləndirilməsinə rəqəmsallaşmanın da təsiri çoxdur. Həmin sistemin rəqəmsal transformasiyası bütün dünyada rəqəmsal iqtisadiyyatın inkişafında ən vacib sahələrdən biridir. Logistikanın rəqəmsallaşması nəqliyyat-logistika proseslərində müxtəlif rəqəmsal texnologiyaların istifadəsində özünü göstərir. Bu sahədə rəqəmsal dəyişikliklərin inkişaf variantı müxtəlif texnoloji həllər və logistika sahəsində fəaliyyət göstərən müəssisələrin hazırlıq səviyyəsi ilə əlaqələndirilir.

Nəqliyyat-logistika sisteminin idarə edilməsində rəqəmsal texnologiyalardan istifadə və infra-

strukturun elektronlaşdırılması bu gün dünya ölkələrinin qarşısında duran əsas problemlərdəndir.

Müasir dövrdə Azərbaycanda nəqliyyat-logistika sisteminin imkanlarından səmərəli istifadə olunması istiqamətləri

Azərbaycanın nəqliyyat-logistika infrastrukturu iri nəqliyyat-logistika mərkəzlərinin formalaşması üçün bütün zəruri ilkin şərtlərə malikdir ki, həmin şərtlərə daxildir: 1. Azərbaycan dəmir yolu, dəniz, avtomobil, hava və boru kəməri nəqliyyatını özündə birləşdirən güclü nəqliyyat sisteminə malikdir. 2. Azərbaycan çoxsaylı nəqliyyat dəhlizlərinin yaradılması imkanını və zəruriliyini təmin edən əlverişli coğrafi mövqeyə malikdir. Bu fakt Avropa ölkələri, eləcə də Asiya ölkələri arasında xarici əlaqələrin intensivləşməsi kontekstində xüsusi önəm daşıyır. Zəngəzur beynəlxalq nəqliyyat dəhlizinin açılması da Azərbaycanın nəqliyyat-logistika sisteminin inkişafında mühüm addım ola bilər. 3. MDB, Avropa və Asiya ölkələri ilə inteqrasiya, bu, müvafiq nəqliyyat dəhlizlərinin inkişafında özünü göstərir. 4. Beynəlxalq inteqrasiya və inkişaf layihələrində iştirak.


Azərbaycanda nəqliyyat-logistika sektorunun inkişafına strateji yanaşmalar dərinləşməkdədir. Artıq bu sahədə müxtəlif qanunlar və normativ aktlar qəbul edilmişdir. Azərbaycanda dayanıqlı inkişaf və dayanıqlı maliyyə sistemi şəraitində milli nəqliyyat-logistika sistemi inkişaf etməkdədir. Müasir tendensiyalar nəqliyyat-logistika xidmətlərinə tələbi əvvəlcədən müəyyənləşdirir və bu xidmətlərlə bağlı mexanizmlər təkmilləşdirilməkdədir və proseslər kifayət qədər aktiv gedir. Yerli və beynəlxalq əhəmiyyətli, eləcə də səmərəlilik baxımından çox cəlbedici olan nəqliyyat dəhlizlərinin olması bu sahədə yüksək potensialdan xəbər verir. Ölkənin nəqliyyat-logistika imkanlarının genişləndirilməsi və beynəlxalq standartlara cavab verən rəqabətqabiliyyətli nəqliyyat-logistika sisteminin təşkili istiqamətləri strateji səviyyəyə qaldırılıb. Qeyd edilən istiqamətdə sərhəd-keçid məntəqələrinin müasirləşdirilməsi və elektronlaşdırılması, sərhəd-gömrük texnologiyalarının yeniləşdirilməsi və modernləşdirilməsi prosesləri sürətlə inkişaf edir [2, s.106].

Azərbaycanın xarici ticarət dövriyyəsinin artırılması nəqliyyat-logistika sistemlərinin potensialının genişləndirilməsi imkanlarından asılıdır. Azərbaycanın ərazisindən keçən bir sıra beynəlxalq nəqliyyat dəhlizləri bu potensialın genişləndirilməsinin nə qədər önəmli olduğunu göstərir. Azərbaycanın Cənubi Qafqaz regionunda əlverişli coğrafi mövqeyi, bir çox sahələrdə strateji üstünlüyü ölkənin gələcəkdə beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi üçün maddi zəmin yaradır [5, s.69]. Hazırda Azərbaycanda nəqliyyat-logistika sistemlərinin potensialının genişləndirilməsində bir sıra beynəlxalq nəqliyyat dəhlizləri önəmli rol oynayır. Belə dəhlizlərdən biri Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizidir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən daşınan yüklərin həcmi artır. Bu, unikal coğrafi və geosiyasi imkanlara malik Azərbaycanın dünya iqtisadiyyatının nəqliyyat sektorunda baş verən proseslərə cəlb olunması ilə bağlıdır. Başqa sözlə, konkret məqsədlərə yönəlmiş kompleks tədbirlərin görülməsinin nəticəsi Azərbaycanın strateji mövqeyindən səmərəli istifadə edərək ölkənin inkişaf etmiş tranzit və nəqliyyat xidmətləri ilə regional ticarət mərkəzinə çevrilməsi, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və tranzit potensialının daha da artırılması olmuşdur [7, s.122].

Şəkil 1 vasitəsilə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində yükdaşımaların həcmini nəzərdən keçirməklə bu kimi dəhlizin ölkəmiz üçün nə qədər önəmli olduğunu görə bilərik.

Şəkil 1-dən Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində yükdaşımaların həcminin qeyri-bərabər şəkildə artdığını görürük. Tədqiq etdiyimiz dövrlərə diqqət yetirsək, ən çox 52762 min ton olmaqla 2019-cu ildə yükdaşınması reallaşdırılmışdır. Ən az isə 2020-ci ildə COVİD-19 pandemiyasının yayılması səbəbindən özündən əvvəlki illə müqayisədə kəskin azalaraq (14271 min ton və ya 37,1%) 38491 min ton təşkil edib. Həmin nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsindən 2022-ci ildə yükdaşıma yenidən artaraq 51421 min ton təşkil etmişdir. Həmin yüklər müxtəlif nəqliyyat növləri üzrə daşınmışdır ki, bunu da şəkil 2-dən görmək olar. 2022-ci ildə dəmir yolu ilə daşınan yükün 412,5 min tonu və ya 2,4%-i Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınıb.



Şəkil 1. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycandan keçən hissəsində yükdaşımaların həcmi, min ton [1].

Digər bir önəmli dəhliz Şimal-Cənub nəqliyyat dəhlizidir. Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı üçün daha bir böyük layihə Astara-Astara dəmir yolu layihəsidir. Bu layihənin reallaşdırılması Azərbaycanın həmin nəqliyyat dəhlizinə əlavə yüklər cəlb etmək imkanlarını artırmaqla yanaşı, Rusiya, İran, Pakistan, Hindistan və Şimali Avropanı birləşdirmək imkanına malikdir. Azərbaycan dünyada Rusiya və İranla quru sərhədi olan yeganə ölkədir və bu coğrafi mövqe üçtərəfli regional əməkdaşlığın inkişafı baxımından böyük önəm daşıyır. Şimal-Cənub nəqliyyat dəhlizi əsasən Hindistan və İran körfəzi bölgəsindən Rusiya, Baltikyanı və Skandinaviya, Qərbi Avropa ölkələrinə yüklərin çatdırılması üçün nəzərdə tutulub. Şimal-Cənub tranzit dəhlizinin digər marşrutlara nisbətən əsas üstünlüyü məsafənin və gediş vaxtının 2-3 dəfə az olmasıdır. Süveyş kanalı, İran körfəzi və Hind okeanı, Aralıq və Baltik dənizləri vasitəsilə Helsinkiyə dəniz nəqliyyatı 45-60 gün, Şimal-Cənub tranzit dəhlizi isə 20-25 gün çəkir. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Azərbaycan və İran dəmir yollarının birləşdirilməsi istiqamətində işlər davam etdirilir. Artıq Azərbaycanın Astara stansiyasından qonşu ölkə olan İranın Astarasına dəmir yolu çəkilib. Növbəti mərhələdə uzunluğu 167 kilometr olan Astara-Rəşt dəmir yolunun tikintisi həyata keçiriləcək ki, bu da İran və Azərbaycan dəmir yollarını tam şəkildə birləşdirmək üçün kifayət etmir. Bütün işlər başa çatdıqdan sonra Skandinaviya ölkələri, Rusiya, Azərbaycan və İranın dəmir yolları bir şəbəkədə birləşdiriləcək, şimaldan Fars körfəzinə kimi vahid dəmir yolu formalaşacaq. Gələcəkdə Şimal-Cənub və BTQ nəqliyyat dəhlizlərinin birləşdirilməsi planlaşdırılır.

Azərbaycan hər iki layihənin fəal iştirakçısıdır. Azərbaycanla yanaşı, ondan Türkiyə, Gürcüstan, Avropa ölkələri, Çin, Qazaxıstan və Orta Asiyanın digər respublikaları istifadə edəcək. Azərbaycan ərazisindən keçən Şimal-Cənub nəqliyyat dəhlizinin uzunluğu 521 km-dir. Rusiya Federasiyasının sərhədi Xəzər dənizinin sahili ilə Dağıstandan Bakı-Ələt-Astara-İran dövlət sərhədinə qədər uzanan avtomobil yoludur. Bu nəqliyyat dəhlizi Fars körfəzinin Avropa ölkələrinə, eləcə də Hind okeanı regionuna çıxışı təmin edir. Bu dəhlizin Azərbaycan ərazisindən keçən hissəsinin tikintisi yaxın vaxtlarda başa çatdırılacaqdır. Bu, şimaldan cənuba və əksinə rahat beynəlxalq daşımaları təmin edəcək [4, s.66]. Nəqliyyat-logistika sistemində dövlət-özəl əməkdaşlığının üstünlüklərindən istifadə dövlət büdcəsinin nəqliyyat sənayesi ilə bağlı investisiya yükünü önəmli dərəcədə azaltmağa, görülən işlərin keyfiyyətini yüksəltməyə imkan verir.

Məlumdur ki, Azərbaycanın əlverişli geosiyasi mövqeyi bir sıra beynəlxalq nəqliyyat dəhlizlərinin mərkəzinə çevrilməsinə imkan verir. Xüsusilə Azərbaycan Dəmir Yolları bu çağırışlara çox səmərəli cavab verir və bu sektorda İKT-dən geniş istifadə olunur. Araşdırmalar göstərir ki, müasir İKT-nin imkanlarından istifadə etməklə, daha dəqiq informasiya hesabına müştəri vaxtına qənaət, beynəlxalq inteqrasiya nəticəsində məlumatların daha sürətli və dəqiq ötürülməsi, düzgün və vaxtında planlaşdırma, qatarların hərəkətini onlayn izləmə və s. belə funksionallığın əldə edilməsi üçün şərait yaradır. Digər tərəfdən, hesab edirik ki, rəqəmsallaşmanın ən vacib şərti yeni

infrastrukturun olmasıdır. Habelə, daxili nəqliyyat-logistika şəbəkəsi gücləndirilir ki, bu da proqram təminatından, proseslərin avtomatlaşdırılmasından, eləcə də informasiya texnologiyaları avadanlığı platformasından istifadə etməyə imkan verir. Habelə, sərnişinlərin internetdən rahat istifadə etməsi də müştəri məmnuniyyətinin artmasına səbəb olur. Müxtəlif nəqliyyat növləri, sərnişindaşıma, hərəkətin təhlükəsizliyi, insan resursları, maliyyə, təchizat və s. sahələrdə proseslərin avtomatlaşdırılması davam edir. Beləliklə, sərnişin və yükdaşıma proseslərinin avtomatlaşdırılması yolu ilə bu proseslərin daha şəffaf, sürətli və dəqiq olmasına şəraut yaradılır.

Müasir dünyamızda nəqliyyat-logistika sistemlərinin rəqəmsal transformasiyası sürətin, çevikliyin və çatdırılma vaxtı standartlarının təmin edilməsində əsas meyarlardan biri sayıla bilər. Beləliklə, nəqliyyatın rəqəmsallaşdırılması və rəqəmsal texnologiyadan istifadə nəqliyyat-logistika sistemində aparıcı tendensiyalardan biridir. Nəqliyyat-logistika sistemində rəqəmsal transformasiya nəqliyyat vasitələrinin idarə edilməsi, informasiya sistemi, naviqasiya dəstəyi, hərəkətin avtomatlaşdırılmış idarə edilməsi və s. kimi bir neçə mühüm elementi əhatə edir. Burada rəqəmsallaşmanın əsas göstəricilərindən biri nəqliyyat vasitələrinin hərəkətini yoxlamaq və idarə etmək üçün rəqəmsal texnologiyalardan istifadə edilməsidir [10, s.81].

Nəqliyyat-logistika sistemlərinin rəqəmsallaşmasının əsas üstünlüklərindən biri müştərilərin həftənin 7 günü, günün 24 saatı istənilən yerdən istədikləri xidmətdən yararlana bilməsidir. Habelə, müştəri məlumatlarının mühafizəsi məqsədilə daşınmaların təşkili zamanı qabaqcıl rəqəmsal texnologiyalardan istifadə yüksək səviyyədə kibertəhlükəsizliyin təmin edilməsini tələb edir. Nəticədə rəqəmsallaşma prosesi Azərbaycan nəqliyyat-logistika sektorunda xidmət keyfiyyətinin və bununla da istehlakçıların məmnunluğunun artmasına səbəb olur. Rəqəmsallaşma səviyyəsinin yüksəldilməsi nəqliyyatda iş prosesini optimallaşdırmağa, pul və vaxta qənaət etməyə, rəqabət üstünlüklərini və nəqliyyat-logistika infrastrukturunun tutumunu artırmağa kömək edir. Bütün bunlar son nəticədə xidmət keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır.

Müasir qloballaşan dünyada müxtəlif nəqliyyat növlərinin göstərdiyi xidmətlərin rəqəmsallaşmasının, eləcə də daşımaların təşkilində müasir innovativ texnologiyaların tətbiqinin getdikcə daha çox şahidi oluruq. Nəqliyyat sektorunda nəqliyyat xidmətlərinin rəqəmsal transformasiyasını təmin etmək lazımdır. Hazırda dövlətlər bir-biri ilə qarşılıqlı əlaqədə olur, məlumat mübadiləsi aparır və məhsulların daha da yüksək satışını reallaşdırmaq üçün nəqliyyat-logistika xidmətlərindən istifadə edirlər. Nəqliyyat-logistika xidmətlərində bu, müştəri ehtiyaclarını ödəmək üçün məhsulun istənilən mənşə nöqtəsindən istehlak nöqtəsinə qədər hərəkətini idarə etmək üçün proseslərin məcmusuna aiddir. Nəqliyyat-logistikada bura həmçinin daşınma, texniki qulluq, saxlama, materialların yığılması və xətlərin təhlükəsizliyi haqqında məlumatlar daxildir.

Nəqliyyat-logistika xidmətlərinin rəqəmsallaşdırılması nəticəsində yük və sərnişin axınının idarə edilməsi, naviqasiya təminatı, nəqliyyat axınlarının avtomatlaşdırılması, informasiya sistemlərinin əlaqələndirilməsi təmin edilə bilər.

Nəticə

Beləliklə, nəqliyyat-logistika sisteminin potensialının genişləndirilməsi və səmərəli istifadə edilməsi ilə bağlı bir sıra məsələləri və amilləri ümumiləşdirmək mümkündür:

• Regional və beynəlxalq səviyyədə nəqliyyat resurslarından səmərəli istifadə edilməsi məqsədilə bütün nəqliyyat növlərinin, eləcə də nəqliyyat-logistika bazarını formalaşdıran əsas iştirakçıların unifikasiyası tədbirlərinin görülməsi vacibdir;

• Nəqliyyat-logistika sisteminin potensialının genişləndirilməsi və inkişafının idarə edilməsi sahəsində səlahiyyətlilərin vahid orqanda cəmləşdirilməsi daha çox səmərə verə bilər;

• Nəqliyyat-logistika sisteminin potensialından məhsuldar istifadə edilməsi məqsədilə regional əməkdaşlığın genişləndirilməsi mütləq şərtlərdən biridir və s.

ƏDƏBİYYAT

1. ARDSK: [Elektron resurs] / URL: https://www.stat.gov.az/source/transport/.
2. Əliyev, Ş.T. Azərbaycanın nəqliyyat sektorunun inkişafının strateji aspektləri. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Azərbaycanın qeyri-neft sektorunun inkişaf perspektivləri Respublika Elmi Konfransının materialları. – SDU, – 25-26 aprel 2019-cu il, – s.105-111.
3. Həmidova A.M. Logistika sistemlərinin regionların sosial-iqtisadi inkişafına təsirinin qiymətləndirilməsi. “Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər” mövzusunda Respublika elmi konfransının materialları. – Sumqayıt. – 22-23 aprel 2021, №2, s.60-64.
4. Hüseynova, M.S. Regional nəqliyyat-logistika sistemləri və onların yaradılmasının səmərəliliyi. Elmi xəbərlər Sosial və humanitar elmlər bölməsi. SDU – 2020 cild 17. №3, – s.66-69.
5. Rzayev, A. Dəyər zəncirinin qloballaşmasına beynəlxalq nəqliyyat dəhlizlərinin təsirinin artması. Statistika xəbərləri, s.63-71. [Elektron resurs] / URL: http://www.etsim.az/upload/File/publication/01-2023/publication-38-file_az.pdf.
6. Азимов, П.Х. О содержании элементов транспортно-логистической инфраструктуры макроуровня / П.Х. Азимов // Наука и техника транспорта. – 2018. № 1, – с. 8-13.
7. Аскеров, Э.И. Транспортно-логистические секторы Азербайджана / Э. И. Аскеров, И.Ф. Гусейнов // Современная наука: актуальные вопросы, достижения и инновации: сборник статей VI Международной научно-практической конференции, – Пенза, – 10 апреля 2019, – с. 120-125.
8. Беломестнов, И.В. Методика оценки эффективности развития транспортно-логистической инфраструктуры / И.В. Беломестнов // Экономический вестник Восточно-Сибирского государственного университета технологий и управления. – 2023. № 1(15), – с. 14-31.
9. Золкин, Е.Ю. Транспортно-логистическая инфраструктура, современные тенденции её развития / Е.Ю. Золкин, А. Н. Кувшинов // Russian Economic Bulletin. – 2023. – Т. 6, № 6, – с. 225-229.
10. Мустафаев, К.Р., Садыгов, А.Б. Транспортно-логистические услуги в Азербайджане направления развития цифровых моделей и перспективы: [Elektron resurs] / URL: file:///C:/Users/Admin/Downloads/transportno-logisticheskie-uslugi-v-azerbaydzhane-napravleniya-razvitiya-tsifrovyh-modeley-i-perspektivy.pdf.
11. Факторный анализ перспектив развития транспортно-логистических систем / А.В. Новиков, О.В. Почекаева, Р.Я. Вакуленко, Н.С. Волостнов // Вестник Екатерининского института. – 2020. № 4(52), – с. 41-46.

Джамиля Эльчин кызы Гулиева
Диссертант Азербайджанского Университета Кооперации,
E-mail: calalzadecamila@gmail.com

Вопросы эффективного использования потенциала транспортно-логистической системы в Азербайджане

Резюме

Цель исследования - изучение вопросов эффективного использования потенциала транспортно-логистической системы в Азербайджане.

Методология исследования - были использованы такие методы, как анализ, синтез, сравнительный анализ и обобщение. Также были учтены научно-методические подходы учёных, проводивших исследования по проблемам использования потенциала транспортно-логистической системы.

Практическое значение исследования заключается в подготовке механизмов более эффективного использования потенциала транспортно-логистической системы в условиях глобальных трансформаций.

Результаты исследования - научные положения и предложения, полученные в современный период, могут быть использованы в эффективной организации транспортно-логистической системы при подготовке многофункциональных механизмов действия.

Оригинальность и научная новизна исследования - прежде всего, совершенствование транспортно-логистической системы Азербайджана в контексте современных глобальных вызовов, подготовка механизмов максимально эффективного использования имеющегося в этой области потенциала для его реализации. Учитывая стратегическое значение международных транспортных путей, проходящих через Азербайджан, важность максимального обновления транспортно-логистической системы, создание высокотехнологичной транспортно-логистической инфраструктуры было обосновано научными аргументами и дана группа предложений по рассматриваемым вопросам.

Ключевые слова: Азербайджан, транспортно-логистическая система Азербайджана, транспорт, логистика, проблемы эффективного использования транспортно-логистического потенциала, перспективы развития транспортно-логистической системы, транзитный потенциал, стратегические функции транспортно-логистической системы.

Jamila Elchin Guliyeva
Dissertant of Azerbaijan Cooperation University,
E-mail: calalzadecamila@gmail.com

Issues of efficient use of the potential of transport and logistics system in Azerbaijan

Summary

The purpose of the research is to study the issues of efficient use of the potential of the transport-logistics system in Azerbaijan.

Research methodology - such as analysis, synthesis, comparative analysis and generalization methods were preferred. Also, the scientific and methodological approaches of scientists who conducted research on the problems of using the potential of the transport-logistics system were taken into account.

The practical significance of the research is the preparation of mechanisms for more efficient use of the potential of the transport-logistics system in the conditions of global transformations.

The results of the research - the scientific provisions and suggestions obtained in the modern era can be used in the efficient organization of the transport-logistics system in the preparation of multi-functional action mechanisms.

The originality and scientific novelty of the research means, first of all, the improvement of the transport and logistics system in Azerbaijan in the context of modern global challenges, the preparation of the mechanisms for the maximum efficient use of the existing potential in this field for implementation. Taking into account the strategic importance of the international transport routes passing through Azerbaijan, the importance of the maximum renewal of the transport-logistics system, the creation of a high-tech transport-logistics infrastructure was justified by scientific arguments and a group of proposals was given.

Keywords: Azerbaijan, transport-logistics system of Azerbaijan, transport, logistics, problems of efficient use of transport-logistics potential, development prospects of transport-logistics system, transit potential, strategic functions of transport-logistics system.